**KAMRAN İMANOV**

# HÜQUQLARIN KOLLEKTİV İDARƏ EDİLMƏSİ MÜASİR MƏRHƏLƏDƏ

**(giriş və məruzə)**

**Bakı – 2019**

**Kamran İmanov,**

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri.

**Hüquqların kollektiv idarə edilməsi müasir mərhələdə (giriş və məruzə). Bakı, 2019**

Bu kitab Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyinin İdarə Heyətinin sədri Kamran İmanovun 29-30 oktyabr 2019-cu il tarixlərində Əqli Mülkiyyət Agentliyi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) birgə təşkilatçılığı ilə keçirilən "Müəlliflik hüququ və əlaqəli hüquqların kollektiv əsasda idarə edilməsi: əsas prinsiplər və beynəlxalq təcrübə" mövzusunda beynəlxalq regional seminarda etdiyi "Hüquqların kollektiv idarə edilməsi müasir mərhələdə (giriş və məruzə)" adlı giriş sözü və məruzəsi əsasında hazırlanmışdır.

**© Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi, 2019**

# Mündəricat

Giriş sözü ............................................................ 5

Məruzə .................................................................. 14

# Giriş sözü

Hörmətli dostlar, xanımlar və cənablar!

Mən xarici qonaqlarımızı, millət vəkillərini, rəsmi şəxsləri, media nümayəndələrini səmimi salamlayıram və işimizdə uğurlar arzulayıram.

Mən, bizim tədbirdə iştirak edən ÜƏMT-nın Müəllif Hüquqlarının İdarəetmə Departamentinin direktoru cənab **Benua Mülleri** və bu təşkilatın Keçid və inkişaf etmiş ölkələr Departamentinin Qafqaz, Mərkəzi Asiya və Şərqi Avropa ölkələri bölməsinin müdiri cənab **İlya Qribkovu** salamlayıram və sizdən xahiş edirəm ÜƏMT-nın Baş direktoru cənab Frensis Qarriyə bu beynəlxalq tədbirin təşkili və keçirilməsinə verdiyi dəstəyə görə mənim minnətdarlığımı çatdırasınız. Cənab Frensis Qarri Azərbaycanın yaxın dostudur və bu münasibət bir daha cari ayın əvvəllərində Cenevrə şəhərində keçirilmiş ÜƏMT-nın Baş Assambleyasında öz təsdiqini tapmışdır. Mənimlə görüşdə (məni qəbul edən) doktor Qarri vurğulamışdır ki, əqli mülkiyyət (ƏM) sistemi dəyişikliklər dövrünü yaşayır və Azərbaycanın bu dəyişikliklərə adekvat olan mövqeyi "düzgün istiqamətdir". Bununla o, Azərbaycan Respublikası Prezidenti, Zati-aliləri cənab İlham Əliyevin rəhbərliyi və göstərişləri ilə ölkəmizdə ƏM sahəsində həyata keçirilən hərtərəfli islahatlar, sahənin yaxşı idarəçiliyi barədə xəbərdar olduğunu və onlara dəstəyini ifadə etmişdir.

Eləcə də mən, müstəqil ekspert qismində bu tədbirə qoşulan, Polşadan gəlmiş cənab **Karol Koşçinskini** salamlayıram. İnanıram ki, o, öz məruzələri ilə seminarın keçirilməsinə dəyərli töhfə verəcəkdir.

Mən həmçinin Müəlliflər və Bəstəkarlar Cəmiyyətinin Beynəlxalq Konfederasiyası – CİSAC-ın Avropa üzrə Regional direktoru **Mitko Çatalbaşevi** salamlayıram. Biz

hüquq sahiblərinin hüquqlarının qorunması sahəsində bu təşkilatla əməkdaşlığa böyük önəm veririk.

Bizim tədbirdə həmçinin dost və qardaş ölkələrin ƏM sahəsi üzrə rəhbər əməkdaşları və mütəxəssisləri iştirak edirlər. Xanımlar **Ceren Muhammedova**, Türkmənistan Əqli mülkiyyət Dövlət Xidmətinin Qeydiyyat şöbəsinin müdiri, **Jaynaqul Ramazanova,** Qazaxıstan Ədliyyə Nazirliyi Əqli mülkiyyət hüquqları şöbəsinin eksperti, **Zarina Çalovanı**, Qırğızıstan Əqli mülkiyyət və İnnovasiya Dövlət xidməti (Qırğızpatent), Müəlliflik hüququ və əlaqəli hüquqlar şöbəsinin təftiş bölməsinin inspektoru, eləcə də cənablar **Abdumumin Yuldaşovu**, Özbəkistan Ədliyyə Nazirliyi Əqli Mülkiyyət Agentliyinin Müəlliflik hüququ və Lisenziyalaşdırma şöbəsinin müdiri, **Farhod Boirovu,** Tacikistan Patent İdarəsinin şöbə müdiri, **Ahmet Yener Koçakı**, Türkiyə Mədəniyyət Müdürlüyü nazirliyinin müəlliflik hüquqları üzrə ekspertini ürəkdən salamlayıram. Bizim Agentlik adıçəkilən dövlətlərin aidiyyəti qurumları ilə əlaqələrin inkişafının tərəfdarıdır və onlarla əməkdaşlığı daha da yüksək səviyyəyə qaldırmaq niyyətindədir.

Xüsusi olaraq Ukrayna, Milli Elmlər Akademiyasının Kiyev hüquq Universitetinin rektoru cənab **Boşitski Yurini** salamlayıram. Cənab Boşitski ilk dəfə deyil ki, Agentliyin tədbirlərində iştirak edir və elə hesab edirəm ki, o, bununla tək ölkəsinin təmsilçiliyini ifadə etmir, eyni zamanda bu tədbirlərin praktiki əhəmiyyətinin mühümlüyünü qəbul edir.

Mən həmçinin Universal Music-Rusiya nümayəndələri **Sergey Yelfimovu və Alexey Bryuxovetskinin** və Sony Music Entertainment – Rusiya təmsilçisi **Dmitri Oleynikovun** bu beynəlxalq tədbirə qatılmalarını alqışlayıram. Hesab edirəm ki, təcrübə mübadiləsi bizim ümumi işə ancaq fayda verə bilər.

Ayrıca olaraq Avrasiya İqtisadi Komissiyasının Biznesin İnkişafı Departamentinin əqli mülkiyyətin hüquqi müdafiəsi şöbəsinin müdiri **Yelena İzmaylovaya** və həmin şöbənin əməkdaşı **Kovalyova Reginaya** xoş gəlmişsiniz deyirəm.

Texnologiyaların təsiri altında dinamik şəkildə dəyişən dünya, meydana çıxan qlobal çağırışlar milli dövlətlərin qarşısında qlobal dəyişikliklərin nəticələrini minimuma endirmək və davamlı inkişaf yollarını axtarmaq vəzifələri qoyur.

Müstəqil inkişaf yollarını daim arayan və buna nail olan Azərbaycan bu gün ölkə rəhbərliyinin təşəbbüsü ilə başlamış və müsbət inkişaf üçün bütün pozitiv imkanları optimallaşdırmağa yönələn islahatların yeni mərhələsindən keçir. İctimai tələblərə adekvat islahatlar cəmiyyətin həyatının bütün sahələrini əhatə edir.

İslahatçı ölkələrin avanqardına daxil olan Azərbaycan "Doing Business - 2019" reytinqinə görə 190 ölkə arasında 25-ci yerdədir, o cümlədən "biznesin başlaması" – 9-cu yer, "kiçik investorların maraqlarının qorunması" – 2-ci yer, "vergilərin ödənilməsi" – 28-ci yer. Yeni dərc olunmuş "Doing Business - 2020" hesabatında Azərbaycan yüksək nəticə ilə 34-cü yeri tutaraq, hətta "kreditlərin əlçatanlığı" göstəricisinə əsasən, birincidir və islahatçı 20 ölkə sırasına daxil edilib.

Dünya İqtisadi Forumunun Qlobal Rəqabətqabiliyyətlilik İndeksi - 2019 hesabatında Azərbaycan 11 pillə irəliləyərək, 141 ölkə arasında 58-ci yeri tutur və 12 indikatordan 8-i üzrə irəliləyib. Bununla da ölkənin inamlı innovasiyalı inkişafı təsdiq edilir. Belə ki, Azərbaycan qanunvericiliyin effektivliyi subindeksinə görə 13-cü, rəqəmli biznes modellərinə hüquqi çərçivənin uyğunlaşması – 23-cü, hökumətin dəyişikliklərə olan reaksiyası – 5-ci və hö-

kumətin gələcəyə yönəlmiş fəaliyyətinə uzaqgörənliyinə görə 10-cu yerləri tutur.

Bu cür kardinal, inqilabi dəyişikliklər öz əksini ƏM-in qorunmasında da tapır. Belə ki, son Rəqabətqabiliyyətlilik İndeksinə əsasən, Azərbaycan "əqli mülkiyyətin qorunması" göstəricisinə görə 141 ölkə arasında 30-cu yerdə qərarlaşıb. Burada diqqəti cəlb edən odur ki, 2015-2016-cı illərdən, yəni islahatların yeni mərhələsindən başlayaraq, bu göstərici ardıcıl olaraq yaxşılaşır. Rəqabətqabiliyyətlilik İndeksində 2015-ci ildə 92-ci yerdən 2016-2017-ci illərdə – 71-ci, 2017-2018 – 37-ci, sonra 36-cı və nəhayət 2019-cu ildə 30-cu yerdə qərarlaşıb. Buna paralel olaraq, patent sifarişlərində də artım görünür.

Bu ilin oktyabr ayında ÜƏMT-nın Baş Assambleyasında Azərbaycan Büdcə və Proqram Komitəsinə seçilib, rotasiya əsasları ilə Koordinasiya Komitəsində təmsil olunacaq və Azərbaycanın nümayəndəsi ilk dəfə olaraq, müəllif hüququ üzrə 1886-cı ildən qüvvədə olan və 170 ölkəni birləşdirən məşhur Bern Konvensiyası Assambleyasının sədri vəzifəsinə layiq görülüb. Söylədiyim faktlar ölkəmizin ƏM sahəsində və xüsusən müəllif-hüquq istiqamətində nüfuzunun bariz nümunələridir.

Bütün bunlar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin islahatlarının dərinləşdirilməsinin qiymətləndirilməsidir, islahatların davamlılığına verilən beynəlxalq dəyərdir, bir tərəfdən dövlət başçımızın iqtisadi strategiyasının doğru yolda olmasıdır, digər tərəfdən institusional islahatların həyata keçirilməsinin nəticəsidir.

Əqli mülkiyyət sahəsi həyata keçirilən islahatların innovasiyalı əsasları ilə dəqiq rezonans yaradaraq, bunların nəticəsində əhəmiyyətli, institusional və funksional dəyişikliklərlə müşahidə olunur.

Əqli Mülkiyyət Agentliyi yaradılıb, onun mandatı həm müəlliflik hüquqları və əlaqəli hüquqlar sahəsini,

həm də sənaye mülkiyyəti sahəsini əhatə edir. Agentliyin tabeliyində iki mərkəz – Patent və Əmtəə Nişanlarının Ekspertizası və Əqli Mülkiyyət Hüquqlarının Təminatı Mərkəzləri yaradılıb, Respublika Elmi-Texniki Kitabxanası onun tərkibinə verilib.

Texnologiyaların transferi və kommersiyalaşdırılması Mərkəzlərinin və İnnovasiyalara dəstək Mərkəzlərinin yaradılması və onların fəaliyyəti üzrə genişmiqyaslı iş aparılır. Beləliklə, aparılmış islahatlar nəticəsində özündə vəhdət təşkil edən üçlük formulu: koqnitivlik, kreativlik və kommersiyalaşmanı birləşdirən özünəməxsus idarəetmə modeli aktuallaşmışdır.

Hörmətli konfrans iştirakçıları!

Bu müvəffəqiyyətlərlə yanaşı, müəllif-hüquq sahəsində kollektiv idarəetmə məsələləri bizi narahat etməyə bilməz. Çünki müəllif-hüquq sisteminin bu istiqaməti yaradıcıları stimullaşdırmalıdır, onların əsərlərinin istifadəsi ilə bağlı qonorarların yığımını təşkil etməlidir, hətta müəllifləri layiqincə həvəsləndirməklə müəllif-hüquq sisteminin nüfuzunu artırmalıdır. Odur ki, Əqli Mülkiyyət Agentliyi ÜƏMT qarşısında təşəbbüslə çıxış edərək, bu beynəlxalq regional seminarın keçirilməsinə nail oldu.

Konfransda müzakirəyə çıxarılan məsələlər sırasında böyük əhəmiyyətə malik olan problemlər mövcuddur.

İlk növbədə regionun müəllif hüquqları və əlaqəli hüquqlarla bağlı kollektiv idarəetmənin hüquqi bazasının müqayisəli təhlilidir. Bu sıraya rəqəmsal erada kollektiv idarəetmə qarşısında duran yeni çağırışlar və onlara adekvat cavabların axtarışı daxildir.

Hesab edirəm ki, kollektiv idarəetməyə strateji yanaşma – hüquq sahiblərinin müstəsna hüquqlarının məhdudlaşdırılması və bununla bağlı məcburi və könüllü kollektiv idarəetmənin həyata keçirilməsi, dövlət və ya özəl

kollektiv idarəetmə təşkilatlarına üstünlüyün verilməsi aktual problemlərdən biridir.

Və nəhayət, kollektiv idarəetmənin şəffaflığı, dürüstlüyü, transparentliyi, korporativ maraqlara, ayrıseçkiliyə yox, yalnız hüquq sahiblərinin mənafeyinə xidmət edilməsi, dövlətin bu təşkilatlarla bağlı nəzarət sisteminin səmərəliyinin artırılması məsələsidir.

Həmin məsələlər ətrafında müzakirələrin aparılmasını, uğurlar və həllini gözləyən problemlər üzrə rəylərin səslənməsini, qabaqcıl təcrübənin mübadiləyə çevrilməsini, bir sözlə, bütün bunları kollektiv idarəetmənin gələcəyi naminə verilən töhfə kimi qiymətləndirirəm.

Hörmətli dostlar!

Bəllidir ki, mədəni müxtəlifliyə hörmət və ehtiram mədəni hüquqların, o cümlədən əqli mülkiyyət hüquqlarının həyata keçirilməsindədir. Bu isə öz növbəsində kreativliyin və yenilikçiliyin həvəsləndirilməsidir. Fərdi səviyyədə buna qulluq edən müəlliflik hüququ və sənaye mülkiyyəti obyektlərinin qorunmasına dair qanunvericilik bazası və onu icra edən dövlət orqanı və digər sahə subyektləridir. Kütləvi (icma, etnos, millət) səviyyədə isə ənənəvi mədəni nümunələrin (folklorun) və ənənəvi biliklərin qorunmasına aid müvafiq qanunvericilik və icrasını təmin edən müvafiq orqandır. Azərbaycanda bu sadalanan funksiyaları yerinə yetirən Əqli Mülkiyyət Agentliyidir. KİT-ları isə müəllif-hüquq sahəsinin subyektləridir.

Xarici qonaqların, peşəkarların bu tədbirdə iştirakını nəzərə alaraq, qeyd etməliyəm ki, ƏM obyektlərinin başında mədəni ənənələr durur, bu dünyaya gəldiyimiz gündən və beşikdən başlayaraq son mənzilimizə qədər bizi müşayiət edən də ənənələrdir. Ənənələrdə etnosun həm təbii-bioloji, həm də yaradıcı – mənəvi gücü və qüdrəti təbiətlə və doğma torpaqla bağlıdır. Milli təfəkkür və fərdi təəssübkeşlik, etnik dərketmə və fərdi səciyyə, mənəvi

dəyərlər və fərdi davranış stereotipləri – bütün bunlar doğma yurdla, əcdadlarla ayrılmaz tellərlə əlaqədədir.

Sadalanan etnoloji və etnoqrafik üzvi əlaqələr: «insan – yaşadığı məkan», «doğma torpaq – bədii şüur», «yaradıcı təfəkkür – təbiət» öz əksini adət-ənənələrdə tapır, «milli ruhun arxeologiyası» adlanır, qocalmağa məruz qala bilməyən, canlı, daim inkişafda olan varidatımızdır, bizim elə keçmişimizdir ki, onsuz bu günümüzün gələcəyi yoxdur. Bunlar bizim keçmişimizin tərəqqisidir və bu günümüzün tərəqqisi sabahkı yeni ənənəyə çevriləcək.

O da unudulmamalıdır ki, mədəni ənənələrin daxili qüdrəti ilə yanaşı, digər böyük gücü vardır. Son elmi araşdırmalar da göstərir ki, ənənələrdə cəmləşən folklor və ənənəvi biliklərin təbii yaranma və inkişaf yolu müəyyən ərazidə iqlim, flora, faydalı qazıntıların yoluna bənzəyir və tarixi proses bu ənənələri vacib təbii resursa və milli sərvətin çox dəyərli hissəsinə gətirib çıxarır. Bununla ənənələr nəinki mədəni, eləcə də iqtisadi, ərazi inkişafı alətinə çevrilir. Deməli, ənənələrin daimi olan mədəni-humanitar vacibliyi ilə yanaşı, onun qorunması əhəmiyyətli dərəcədə sosial-iqtisadi inkişaf aləti olmasından da irəli gəlir.

Hörmətli konfrans iştirakçıları!

Oktyabrın 25-də Bakıda Qoşulmama Hərəkatına üzv ölkələrin dövlət və hökumət başçılarının XVIII Zirvə Görüşü işə başladı və Azərbaycan bu Hərəkatda müvafiq dövr ərzində sədrlik edəcək. Zirvə görüşü dünyanın agendasında ən aktual hadisədir.

Azərbaycan Prezidenti cənab İlham Əliyevin burada söylədiyi nitqindən bir sitat gətirmək istəyirəm: “Azərbaycanın dövlət müstəqilliyinin cəmi 28 yaşı var. Bir həftə öncə – oktyabrın 18-də müstəqilliyimizin bərpa olunması gününü qeyd etdik. Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağ və ətrafındakı yeddi rayon – ölkəmizin beynəl-

xalq səviyyədə tanınmış ərazilərinin təxminən 20 faizi iyirmi beş ildən artıqdır ki, Ermənistanın işğalı altındadır. Ermənistan azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti aparmış və nəticədə bir milyondan artıq azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür...

Qarabağ əzəli Azərbaycan torpağıdır və münaqişə yalnız Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində həll olunmalıdır".

Beləliklə, işğal olunmuş ərazilərdə və bu torpaqlardan qovulan sakinlər – Azərbaycan vətəndaşları öz mədəni irsini yaşatmaqdan məhrumdurlar, doğma yurd və iqlimdə irsimizin zənginliyini inkişaf etdirməkdən məruz qalmışlar. Lakin bu çirkin əməllərin bir tərəfidir. Digəri isə ərazilərimizə göz dikən və erməniçiliyin "Böyük Ermənistan" xülyası ilə yaşayan bədnam qonşularımızın ərazi iddialarını "əsaslandırmaq" üçün maddi və qeyri-maddi mədəni irsimizə təcavüz edərək, bunu "Azərbaycan mədəni ənənələrinin mənimsənilməsi erməni ənənəsi"nə çevirməkdə davam etməsidir.

Xarici qonaqlarımız bilməlidirlər ki, bu xüsusi növ piratçılıq – erməni-hay plagiatçılığı, mənimsəməsi, özününküləşdirilməsi və saxtakarlıqları faktlarıdır. Bir sözlə, söhbət xalqımıza və Azərbaycan vətəndaşlarına məxsus olan əqli mülkiyyətin oğurlanmasından gedir.

Bu gün maddi-mənəvi dəyərlərin, qədim mədəniyyət nümunələrinin, müəllif əsərlərinin özünüküləşdirilməsi faktları qloballaşma prosesini müşayiət edən "zərərsiz plagiat" cəhdləri kimi dəyərləndirilməməlidir. Bu gün ermənilər tərəfindən türk xalqına, xüsusən azərbaycanlılara xas qədim abidələrin, folklorun, xalq musiqisinin, mətbəx nümunələrinin, xalçaların, rəqslərin, eləcə də musiqi alətlərinin və müəllif əsərlərinin məqsədli şəkildə mənimsənilmə cəhdləri heç də "mədəniyyətlərarası inteqrasiya prosesi"nin təzahürü deyildir. Belə səylərin arxasında siyasi

maraqların dayanması birmənalıdır. Məqsəd azərbaycanlılara məxsus maddi-mədəniyyət irsini özününküləşdirməklə, hayların guya Cənubi Qafqaz regionunun «ən qədim köklü sakinləri» olmasına, «Böyük hay mədəniyyəti», «Böyük Ermənistan» xülyasının gerçəkləşdirilməsinə dair saxta «faktoloji materiallar» toplamaq və bu barədə beynəlxalq ictimaiyyətdə yanlış rəy yaratmaqdır.

Bir sözlə, erməni plagiatının kökləri ərazi iddiaları ilə sıx əlaqəlidir, işğal edilmiş Azərbaycan torpaqlarını imkan çərçivəsində özündə saxlayaraq, digər torpaqlara göz dikməkdədir.

Hörmətli dostlar!

Bu tendensiya çox xatalıdır, beynəlxalq cəmiyyətin firavan gələcəyi üçün bəlalı və problemlər yaradan bir fəsaddır. Odur ki, «Azərbaycan mədəni ənənələrinin özününküləşdirilməsi erməni-hay ənənəsi» və onun müasir residivlərinə sipər çəkilməlidir və biz əqli mülkiyyətin keşiyində dayanan təşkilat kimi bu faktların ifşasında gücümüzü əsirgəməyəcəyik.

# Məruzə

Hörmətli konfrans iştirakçıları!

Son zamanlar hüquqların kollektiv idarə edilməsi mövzusu aktuallaşmanı aşaraq, həddindən artıq "qızışdırılıb". Bir tərəfdən dövlət orqanları tərəfindən atılan radikal təşəbbüs və tədbirlər, səs-küylü münaqişələr, digər tərəfdən kollektiv idarəetmə təşkilatlarının prioritet və "ilkinliyini" qəti şəkildə müdafiə etməsi və s. diskussiyaların şişirdilməsinə gətirib çıxararaq, bu sahənin sistemli böhran vəziyyətə düşməsi haqqında fikir yaradır. Böhran vəziyyətinin yaranması ilə müəyyən mənada razılaşmaq mümkündür. Lakin böhranın əmələ gəlməsi ilə bağlı qloballaşma və texnoloji sıçrayışa aid yeni reallıqları nəzərə almaqla, səbəblərin bugünkü dəlil və emosiyalar çərçivəsində deyil, kollektiv idarəetmənin ilkin yaranma köklərində axtarmaq daha məqsədə müvafiqdir.

1777-ci ildən, Bomarşe tərəfindən dram əsərlərin qorunmasından başlayaraq, sonrakı mərhələdə – 1838-ci ildə ədəbi və digər əsərlərin idarə edilməsinə aid Balzak, Düma, Hüqo və s. müəlliflərin yaratdığı cəmiyyətlər və 1847-ci ildə Fransada SACEM, musiqi əsərlərinin kollektiv idarəetmə təşkilatının formalaşmasına qədər **bu sahə müstəsna olaraq, hüquq sahiblərinin, konkret olaraq, müəlliflərin maraqlarını güdürdü və mənafeyini qoruyurdu, onlar üçün müəllif qonorarının yığımını həyata keçirirdi**.

Zaman keçdikcə, əsərlərin istifadə üsulları artdıqca və yayım kanalları inkişaf etdirildikcə **kollektiv idarəetmənin məqsədinin hüquq sahibləri – müəlliflərin və istifadəçilərin mənafeyinə xidmət etməsinin olduğu bəyan edilmişdi** və de-fakto bu strukturlar təşkilati və texniki cəhətdən evolyusiya etmələrinə baxmayaraq, konseptual cəhətdən dəyişmədən bu günə qədər qalır.

Odur ki, kollektiv idarəetmədən söz açıldıqda müəlliflərin (hüquq sahiblərinin) əsərlərindən istifadə etməyə nəzarətin, istifadəçilərin isə istifadəyə icazə (lisenziya) almağın mümkünsüzlüyü və ya mürəkkəbliyi əsas götürülür. Bununla da **kollektiv idarəetmə sisteminin mahiyyəti və məntiqi hüquq sahiblərinin və istifadəçilərin maraqlarının ortaq məxrəcə gətirilməsi prinsipini irəli sürür**.

**Bu həqiqətən belədir və kollektiv idarəetmə təşkilatlarının müəllif hüquqlarının qorunmasına verdiyi vacib töhfədir. Lakin qarşımızda "hüquqların hansı idarəetmə sistemi – individual, fərdi, yoxsa kollektiv idarəetmə sistemi daha əlverişlidir?" sualı dayandıqda, cavab birmənalıdır – mümkün olduğu halda fərdi idarəetmə daha əlverişlidir, daha üstündür, çünki müəllifin (hüquq sahiblərinin) iradəsinə və qərar verməsinə əsaslanır.**

Maraqlısı odur ki, müasir dünyada texnologiyalar – rəqəmli şəbəkələr, müxtəlif rəqəmli platformalar və qurğular istifadəçilərin həyat tərzini dəyişdirib, tarazlığı pozmaqla onlara üstünlüklər, yeni alətlər təqdim edib. Lakin bununla yanaşı, hüquq sahiblərinə də fərdi qaydada öz hüquqlarının individual idarə edilməsinə şərait yaradıb, o cümlədən blokçeyn yanaşması və texnologiyaların əsasında.

Hörmətli yığıncaq iştirakçıları!

Bəllidir ki, müəlliflərin (hüquq sahiblərinin) müstəsna hüquqları məhdudlaşdırıla bilər və bu növ məhdudiyyətlər sırasına:

- əsərlərdən sərbəst istifadə halları ("free use"),
- qeyri-könüllü ("non voluntary") lisenziyalar (o cümlədən məcburi lisenziyalar ("compulsory license") və qanuni lisenziyalar ("statutory license")) daxildir.

Hüquqların kollektiv idarə edilməsi də (kollektiv lisenziyalaşma) müstəsna hüquqların məhdudlaşması deməkdir, lakin məhdudiyyətin ən yumşaq forması kimi çıxış edərək, qeyri-könüllü lisenziyaların alternativi kimi təsbit edilir. Kollektiv idarəetmənin hüquqi əsaslarını Bern Konvensiyasının 11 bis (2) və 13 (1) maddələri təşkil edir və kollektiv idarəetmənin tətbiqi isə milli qanunvericilikdə "xüsusi şərtlər" vasitəsilə tənzimlənərək, mütləq şəkildə hüquq sahiblərinə mükafatın çatdırılmasına bağlanır.

**Azərbaycanda hüquqların kollektiv idarə edilməsi qanuni və normativ-hüquqi aktlara əsaslanır, könüllü xarakter daşıyır və kollektiv idarəetmə təşkilatları qaydalara uyğun olaraq, məhdud genişləndirilmiş lisenziyalaşmanı tətbiq etməlidirlər.** Yəni müəyyən bir sahədə yeganə təşkilat kollektiv idarəetməni təşkil edərək, yalnız ona hüquqların təmsilçiliyini həvalə edən hüquq sahiblərinin hüquqlarını idarə edir. İstisnalar isə müəllif-hüquq qanunvericiliyinin 17.3 və 37-ci maddələrində göstərilən private-copy (şəxsi məqsədlər üçün surətçıxarma) və dərc edilmiş fonoqramlarla bağlı müvafiq olaraq, qanuni lisenziyalar əsasında həyata keçirilir.

Bu cür kollektiv idarəetmə cəmiyyətlərinin alternativi isə "agent növlü" kollektiv idarəetmə təşkilatlarıdır. Əgər "genişləndirilmiş kollektiv idarəetmə" əsərlərdən istifadənin müəyyən sahəsində fəaliyyətin inhisar (monopol) xarakterini və məhdud sayda cəmiyyətləri nəzərdə tutursa, "agent növü" eyni sahədə çoxlu sayda müəllif-hüquq cəmiyyətlərinə əsaslanır ki, bunların da hər biri məhdud dairədə hüquq sahiblərinin, hətta bir neçə hüquq sahibinin də maraqlarını təmsil edərək fəaliyyət göstərə bilər.

Azərbaycan qanunvericiliyinin "genişləndirilmiş kollektiv idarəetmə" ilə bağlı müəyyən etdiyi məhdudiyyət onunla bağlıdır ki, belə ictimai birlik ancaq ona bu səlahiyyəti vermiş hüquq sahiblərinin maraqlarını təmsil edə

bilər. Bununla yanaşı, Qanunun mövcud normasına (43-cü maddə) uyğun olaraq, kollektiv idarəetmə təşkilatına belə hüququ verməmiş hüquq sahibinin ona çatası qonorarı tələb etmək (şərik əsərlər üçün, yaxud bütöv proqrama görə hesablanmış qonorar), həmçinin öz əsərlərinin həmin təşkilatın repertuarından çıxarılmasını tələb etmək ixtiyarı vardır.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan bu normaya və beynəlxalq təşkilatların qəbul etdiyi təsnifata uyğun olaraq, "məhdud genişləndirilmiş kollektiv idarəetmə" öz-özlüyündə onlara münasibətdə kollektiv idarəetmənin həyata keçirildiyi şəxslərin sayının məhdudlaşdırılmasıdır.

ÜƏMT-nın "Hüquqların kollektiv idarə edilməsi üzrə təşkilatların yaradılması və fəaliyyəti üzrə tədqiqatlar və tövsiyələr"inə (Cenevrə, 1990) uyğun olaraq, hüquqlarının idarəçiliyini ona verməmiş hüquq sahiblərinin adından kollektiv idarəetmə təşkilatının çıxış etməsi üçün qanunvericilikdə belə bir norma müəyyən edilməlidir. Bu fikir Avropa Birliyinin TACİS Əqli mülkiyyət proqramı xətti ilə hazırladığı "Avropa Birliyi: Əqli mülkiyyət sahəsində qanunvericilik təcrübəsi" sənədində də təsdiqlənir. Azərbaycan qanunvericiliyində belə norma yoxdur. Odur ki, məhdud genişləndirilmiş Konsepsiyası tətbiq olunur.

Azərbaycan qanunvericiliyi kollektiv idarəetmə təşkilatlarının yaranmasını ictimai birliklər kimi müəyyən edir, qeydiyyatını Ədliyyə Nazirliyinə həvalə və bununla yanaşı, Əqli Mülkiyyət Agentliyində akkreditasiyanın keçməsini zəruri təsbit edir. Akkreditasiya qaydalarına aid hökumətin xüsusi qərarı qüvvədədir.

Hörmətli yığıncaq iştirakçıları!

Ötən ay başa çatan ÜƏMT-nın Baş Assambleyasında Bern Konvensiyasının Assambleyasının sədri seçilməyimə arxalanaraq, çıxışımın bu hissəsində Azərbaycanın

kollektiv idarəetmə sisteminin rəqəmlərinin dünyadakı trendlərlə müqayisəsini aparacağam.

Diqqətimizi CISAC-ın 2019-cu ilin “Annual Report”-na yetirsək, görürük ki, bu beynəlxalq ictimai struktur 122 ölkədən 439 üzv-cəmiyyətləri birləşdirərək, 9,6 mlrd. avro qonorar yığımını təşkil edib və bu rəqəm 2018-ci ildə 2017-ci ilin nəticələrini 6,2% üstələyir. O cümlədən, yığılan qonorardan 1,27 mlrd. avro rəqəmli kolleksiyaların payına düşür, bu da ümumi yığımın 13,2%-ni təşkil edir. Hesabatdan çıxarılan digər vacib nəticə Avropa regionunun qonorar yığımındakı 5,401 mlrd. avro təşkil edən digər regionlarla müqayisədə ən böyük payıdır.

Xatırladıram ki, 2017-ci il dekabr ayında Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin ÜƏMT ilə birgə keçirdiyi “Müəllif hüququna hörmətin aşılanması: rəqəmsal mühitdə piratçılığa və kontrafaktçılığa qarşı mübarizə” adlı konfransda çıxış edərək, CISAC-ın 2018-ci ildəki hesabatından aşağıdakı nəticələri xüsusi qeyd etmişəm:

“**Birincisi,** CISAC qeyd edirdi ki, rəqəmsal istifadə qonorarların ümumi yığımına təsir göstərir, lakin rəqəmsal yığım nəticəsində müəlliflərin gəlirləri onun ümumi yığımın 10%-i təşkil etdiyi halda lazım olduğu qədər artmır, çünki gəlirlərin əsas payı yaradıcılara yox, rəqəmsal xidmət göstərənlərə gedir. Və **burada fundamental ədalətsizlik və bazarın qəbul olunmaz disbalansını düzəldə biləcək qanunverici islahatlara zərurət yaranır**.

**İkincisi, Hesabatda təsdiq olunurdu** ki, ümumiyyətlə “**rəqəmsal bazarda gəlirlərin prinsipcə ədalətsiz və səmərəsiz bölüşdürülməsi mövcuddur**. Yəni kontenti əlçatımlı edənlər yaradıcıdan, investordan və naşirdən daha çox gəlir qazanır və bu təşkilatlar yaradıcılara nə isə verməkdən imtina edir. Və **bunun nəticəsi yaradıcı sektor üçün dağıdıcı olur**, çünki yaradıcı kontentin is-

tifadəsində böyük artım müşahidə olunur, amma dəyərin qaytarılması çox cüzidir”.

**Əlavə olaraq qeyd olunurdu ki, “tələb üzrə musiqinin ən böyük mənbələri olan istifadəçi kontentlərin servisi dəyərin ötürülməsinin əsasında durur. Bu xidmətləri yaradanlara qaytarılan gəlirlər qeyri-proporsional olaraq azdır”.**

**Deməli, CISAC ötən ilki hesabatında artan rəqəmsal bazarda gəlirlərin ədalətsiz bölüşdürülməsinin olduğunu ön plana çəkərək, qanunverici islahatların zərurətini təsbit edir və bununla yanaşı, musiqi sektorunda gəlirlərin qaytarılmasının da qeyri-proporsional, cüzi olduğunu nəzərə çatdırır.**

CISAC-ın son, bu ilki hesabatına qayıdaraq, qeyd edək ki, bizi maraqlandıran Avropa regionunda 47 ölkənin 108 kollektiv idarəetmə cəmiyyətləri ofisi Budapeştdə yerləşən CISAC-ın Avropa Komitəsinin başçılığı altında fəaliyyət göstərir. Hesabatda qeyd olunur ki, regional ofis region cəmiyyətlərinə dəstək göstərərək, bura daxil olan 26 Mərkəzi və Şərqi Avropa, həmçinin Mərkəzi Asiya (CEE) ölkələrindən ibarət 48 cəmiyyəti xüsusi diqqət altında saxlayır.

**Qeyd etdiyim kimi, Avropada qonorar yığımı 5,4 mlrd. avro təşkil edərək, 56,4% dünya qonorar yığımını təsbit edir və bu yığım 2017-ci ilin yığımını 5,7% üstələyir.**

**Bəs Azərbaycanın da daxil olduğu təşkilatlarda CEE ölkələrinin vəziyyəti nə cürdür?**

Hesabatda qeyd olunur ki, bu yığım 8% artaraq, 424,3 mln. avro təşkil edir. **Önəmlisi də odur ki, ümumi yığımda musiqili əsərlərlə bağlı qonorar yığımı 77%, audiovizual – 13,3%, dram – 7,1%, ədəbi – 1,4% və təsviri incəsənət əsərləri – 0,9% təşkil edir.**

Dediklərim aşağıdakı nəticələrə gətirir:

**CEE ölkələri üzrə qonorar yığımı əhəmiyyətli dərəcədə artımla (8%) müşahidə olunur, özü də ən çox musiqili əsərlərə görə qonorar yığımı dram əsərlərinə aid yığımı təxminən 10 dəfə üstələyir və təqribən 6 dəfə audiovizual əsərlərə görə yığılan qonorardan çoxdur**. Bu rəqəmləri diqqət altında saxlayaraq, yığıncaq iştirakçılarını Azərbaycandakı vəziyyətlə tanış etmək istəyirəm.

Azərbaycanda 2 kollektiv idarəetmə təşkilatı fəaliyyətdədir: musiqili əsərlər üzrə "Azərbaycan müəllifləri" təşkilatı CİSAC-ın üzvüdür və audiovizual əsərlər üzrə "Kinorejissorlar gildiyası" CİSAC-ın üzvlüyünə namizəddir. Hər ikisinə yarandıqları andan ƏMA (o zaman MHA) hüquqi, təşkilati və intellektual yardım göstərərək, fəaliyyət dövrlərində yaranan problemlərin həllində daim dəstəkləmişdi. Bu da təbiidir, cənab Prezident İlham Əliyevin təsdiq etdiyi ƏMA-nin Nizamnaməsində göstərildiyi kimi, Agentlik ƏM və o cümlədən müəllif-hüquq sahəsində dövlət siyasətini həyata keçirən, sahənin tənzimlənməsinə, nəzarət və koordinasiyasına cavabdeh orqandır.

"Azərbaycan Professional Kinorejissorlar Gildiyası" 17 may 1999-cu ildə 32 kinorejissorun təşəbbüsü ilə təsis edilmiş və Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatından (18.06.1999-cu il) keçirilmiş, elə həmin ildə də Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyində uçota alınmışdır.

Gildiya müəllif-hüquq qanunvericiliyinin tələblərinə uyğun olaraq, son akkreditasiya müddətinin bitməsi ilə əlaqədar 2018-ci ildə Əqli Mülkiyyət Agentliyində 5 (beş) il müddətinə qeydiyyatdan (akkreditasiyadan) keçirilmiş və ona Şəhadətnamə verilmişdir.

2018-ci ildə Gildiya **43986 manat** qonorar yığımına malik olmuşdur və hesabatlarını qanuna uyğun təqdim edir.

Gildiyanın hazırda qarşısında duran problemlərdən biri audiovizual əsərlərdən və televiziyalar tərəfindən istifadəyə, həmçinin kabel televiziyası operatorları tərəfindən retranslyasiyaya görə qonorarın ödənilməməsi ilə bağlıdır və Gildiyanın iddiaları əsasında məhkəmələrdə Agentliyin nümayəndələri onun mövqeyini dəstəkləyir.

Yaxın gələcəkdə bu təşkilat Agentliyin tabeliyində olan Əqli mülkiyyət hüquqlarının təminatı Mərkəzi ilə birgə "private copy"-ya aid qanuni lisenziyalaşmanın aparılmasına hazırlaşır.

O ki qaldı digər kollektiv idarəetmə təşkilatına – musiqi əsərləri ilə bağlı, burada vəziyyət fərqlidir. Qeyd etmək lazımdır ki, İctimai Birlik əvvəllər "Musiqili Əsər Müəlliflərinin Əmlak Hüquqlarının İdarəçiliyi" adı altında fəaliyyət göstərmiş və 2004-cü ildən Müəllif Hüquqları Agentliyində uçota alınmışdır. O zaman İctimai Birliyin fəaliyyət dairəsi ancaq **musiqili əsər müəlliflərinin əmlak hüquqlarının kollektiv əsasda idarəçiliyi üzrə** müəyyənləşdirilmişdi. 2008-ci ildə Birliyin Nizamnaməsinə edilmiş dəyişikliklərə əsasən, onun adı dəyişdirilərək, **"Azərbaycan Müəllifləri"** adlandırılmış və əsas məqsədi **"müəlliflərin əmlak hüquqlarının təmin edilməsi məqsədilə bu hüquqların kollektiv əsasda idarə edilməsi"** kimi göstərilmişdir.

Yeni edilmiş dəyişikliklərdən sonra İctimai Birlik Agentliyə müraciət etməli və fəaliyyət dairəsinin genişləndirilməsi ilə bağlı Agentlikdən icazə almalı idi. **Lakin Birlik Agentlikdə qeydiyyatı olmadan fəaliyyətini davam etdirmişdir ki, bu da mövcud qanunvericiliyə ziddir.**

İctimai Birlik Agentlik tərəfindən dəfələrlə edilən xəbərdarlıqlardan sonra 2017-ci və 2018-ci illər fəaliyyəti ilə bağlı illik hesabatları vaxtından gec, cari ilin avqust ayında təqdim etmiş və Hesabatların təhlili zamanı aşkar olunmuşdur ki, orada göstərilən məlumatlar tam deyil və

bununla yanaşı, bir sıra diqqətsizliklərə yol verilmişdir: İctimai Birliyin qonorar yığımı **2018-ci ildə** 97118,89 manat olmuşdur.

Hörmətli dostlar!

Azərbaycanda böyük həcmli əsərlərdən istifadəyə görə qonorar yığılması və müəlliflərə çatdırılması sahəsində kollektiv idarəetmə təşkilatı olmadığından, bu funksiya Agentlik tərəfindən həyata keçirilir və buna görə heç bir xidmət haqqı tutulmur. Qeyd etmək istəyirəm ki, təkcə 2018-ci ildə Agentlik tərəfindən **111662** manat qonorar yığılmışdır.

Beləliklə, qonorar yığımı Azərbaycanda dram əsərlərinə 111,5 min (45%), musiqili əsərlərə 97 min (38%) və audiovizual əsərlərə görə 43 min (17%) təşkil edir. Bu yığımı təşkil edən strukturlar müvafiq olaraq, Əqli Mülkiyyət Agentliyi, "Azərbaycan müəllifləri" kollektiv idarəetmə təşkilatı və Kinorejissorlar Gildiyasıdır.

Söylədiklərimin sonunda bir müqayisə aparmaq məcburiyyətindəyəm.

Avropa regionunda CEE ölkələri daxil olmaqla, musiqili əsərlərə görə qonorar yığımı 77% təşkil edərək, dram əsərlərinə görə yığımı (7,1%) 10 dəfə, audiovizual əsərlərə görə yığımı (13,3%) təxminən 6 dəfə üstələdiyi halda, Azərbaycanda vəziyyət tam əksinə, dünya trendi ilə uyğunlaşmır, hətta ona ziddir. Belə ki, dram əsərlərinə görə olan yığım digər əsərlər növünə aid olan yığımı üstələyir, o cümlədən musiqili əsərlərə görə olan yığımla münasibətdə 7%. Yaranan paradoksal vəziyyət bizi düşünməyə və tədbir görməyə vadar edir. **Heç də təsadüfi deyil ki, CISAC son hesabatında hüquqların təmin edilməsində digər dövlətlərlə yanaşı Azərbaycanın da kollektiv idarəetmə təşkilatlarını tənqid edir.**

CISAC nümayəndəsinin burada iştirak etdiyini nəzərə alaraq, bir faktı qeyd etmək istəyirəm. Hesabatda gös-

tərilir ki, “Azərbaycan müəllifləri” kollektiv idarəetmə təşkilatı CISAC-ın tam üzvü olaraq musiqili əsərlərlə yanaşı dram əsərlərinə aid fəaliyyət göstərir.

Tam məsuliyyətlə qeyd edirəm, bu kollektiv idarəetmə təşkilatının buna səlahiyyətləri yoxdur və yuxarıda qeyd etdiyim kimi, dram əsərləri ilə bağlı qonorar yığımını hökumətin göstərişi ilə ictimai yük kimi Əqli Mülkiyyət Agentliyi aparır. Əmələ gələn yanlışlıq səbəbindən Azərbaycanda qonorarın ən çox yığımı, yəni dram əsərlərinə görə yığım CISAC-ın hesabatına düşmür və nəticədə təhrif olunmuş mənzərə yaradır.

Hörmətli konfrans iştirakçıları!

ÜƏMT-nın Baş direktoru, d-r F.Qarrinin sözlərinə istinad edərək, “Copyright sistemini stress vəziyyətindən çıxartmaq üçün, xüsusən rəqəmsal erada, yeni baxışlar, modellərin axtarışı labüddür”. Bu yanaşma hansı prinsiplərə əsaslanmalıdır?

- ❖ Yanaşmanın uğuru online istifadə sxemlərinin elə tənzimlənməsidir ki, istifadəçilərin gözləntiləri ilə uyğunlaşmalı olsun, leqal istifadə və lisenziyalaşma qeyri-leqal istifadə qədər asan olsun;
- ❖ Müəllif hüququnun məqsədi əsərlərin yaradılması və yayılması ilə bağlı bütün texnologiyalarla əməkdaşlıq etmək, bu texnologiyalar vasitəsilə yaranan mədəni mübadilədən faydalanmaqdır, yeni biznes-modellər yaradaraq köhnə texnologiyalar əsasında yaradılmış biznes-modellərin qorunmasına yönəldilməməkdir;
- ❖ Müəllif hüququna dair siyasət sahəsində ən azı hüququn, infrastrukturun, mədəni dəyişikliklərin və ən yaxşı biznes-modellərinin birləşməsi nəzərdə tutulmalıdır.

Söylədiyim prinsiplər əslində təsdiq edir ki, mövcud olan kollektiv idarəetmə infrastrukturu artıq rəqəmsal döv-

rün tələblərinə cavab vermir və inkişaf etməlidir, çünki bu cəmiyyətlərdən hər birinin fəaliyyət dairəsi, özünü ifadə etmək mühiti vardır, İnternetdə isə kontentin idarə olunması üçün onun musiqili, audiovizual, yaxud başqa bir əsərdən yaradılmasının əhəmiyyəti yoxdur.

Bizim tərəfimizdən hazırlanmış və həyata keçirilən infrastruktur layihəsi one-stop-shops formatda onlayn lisenziyalaşmanı və monitorinqi (müəllif hüququ ilə qorunan hər hansı bir kontent üçün bir pəncərə prinsipini) nəzərdə tutur. Biz kollektiv idarəetmə cəmiyyətlərimizlə qarşılıqlı əlaqələr quracağıq, lakin başqa qaydalarla: kontentin milli bazasını Agentlik idarə edəcək və bu milli məlumat bazasında kollektiv cəmiyyətlərin repertuarından, həmçinin folklordan və digər obyektlərdən istifadə olunacaq. Bütövlükdə, İnternetdə qorunan kontentin ədəbiyyat, musiqili, audiovizual əsərlərdən, məlumat bazalarından, foto şəklində incəsənət əsərlərindən, folklor nümunələrindən və fonoqramlardan ibarət olacağı nəzərdə tutulur. Kontent axtarış məqsədilə identifikatorlarla və təhlükəsizliyi, qanuniliyini müəyyən edən su nişanları ilə təchiz olunur.

Bununla yanaşı, biz başa düşürük ki, İnternetin çoxyurisdiksiyalı və sərhədsiz olması qlobal infrastrukturun, ÜƏMT səviyyəsində məlumat bazasının yaradılmasını tələb edir. Bu iş ÜƏMT-də artıq başlanıb və kontentin milli Reyestrinin və onu idarəetmə sisteminin, milli bazaları birləşdirən, ÜƏMT-nın qlobal bazası ilə uyğunlaşdırılmasına imkan verəcək.

Hörmətli dostlar!

Əqli mülkiyyətin dünyada bugünkü fəaliyyət kontekstinin prinsipial fərqləndiyi eyni dərəcədə ƏM-ə və onun roluna olan münasibətdə bizim düşüncə tərzimizin dəyişməsini tələb edir.

Əks halda çox qəti tənqidi fikirlərlə rastlaşmalıyıq. Məsələn, IPChain Assosiasiyasının Prezidenti, Avrasiya hüquq sahibləri Konfederasiyasının başçısı cənab A.Kriçevskiyin qeyd etdiyi kimi, "... Kollektiv idarəetmə təşkilatlarını unudun. Hazırda bu servis xidmətlərinin bazarda heç bir əhəmiyyəti yoxdur... Bu gün ayrı oyunçular və ayrı dünyadır".

Biz heç bir vəchlə IPChain sisteminin imkanlarını inkar etmirik. Hətta 2017-ci ildə ÜƏMT ilə birgə keçirdiyimiz konfransda mən Azərbaycanda MHAChain istiqamətində apardığımız işlər haqqında geniş məruzə etmişəm.

Xatırladım ki, **MHAChain Azərbaycan layihəsi** – P2P şəbəkə bazasında blokçeyn-texnologiyasına əsaslanan platformadır və **iki fəaliyyət rejimi**nə malikdir, onun iştirakçıları sırasına isə istifadəçilər və hüquq sahibləri (müəlliflər) daxildir.

**Hüquq sahibləri ilə əlaqə məlumatının və obyektlərinin istifadəsi şərtlərini ümumi reyestrdən çox rahat əldə etmək mümkün olur** və bu da marağı olan şəxslərə lisenziya almaq üçün zəruri məlumatların əldə edilməsini daha da sadələşdirir.

Təklifimizin mahiyyəti ondan ibarətdir ki, kollektiv idarəetmə sistemi blokçeynə qarşı yox, onunla əməkdaşlıq edə bilər.

Hörmətli konfrans iştirakçıları!

Copyright-sisteminin bütövlükdə, həmçinin hüquqların kollektiv idarə edilməsinin hansı istiqamətdə inkişafından asılı olmayaraq, bu gün fəaliyyətdə olan təşkilatların dayanıqlı və sağlam olması və nüfuzunun itirilməməsi məqsədilə mütəxəssislərin rəyinə əsasən, iki məqama xüsusi diqqət yetirilməsi tələb olunur:

Birincisi – kollektiv idarəetmə təşkilatlarında transparentliyin, açıqlılığının təmin edilməsidir;

İkincisi – bu təşkilatların fəaliyyətinə dövlət nəzarətinin düzgün qurulmasıdır.

Bu iki vacib amil müxtəlif növ peşəkar sənədlərdə öz əksini tapmışdır.

ÜƏMT-nın "KİT üçün qabaqcıl təcrübəsi" adlı vəsaitində (yanvar, 2018-ci il) KİT-lərin hesabatlarına ciddi tələblər irəli sürülür: onların hesabatları ictimaiyyətə təqdim etmək üçün istifadəsi rahat olan formatda dərc edilməlidir, misal üçün, özlərinin veb-saytlarında". Həmin sənəddə ciddi tələblər – KİT-lərin fəaliyyətinin dövlət nəzarətinə aid müddəaları mövcuddur.

Digər – ÜƏMT-nın "Keçid iqtisadiyyatı olan ölkələrdə müəllif hüququnun tipik xüsusiyyətləri" sənədində KİT-lərin fəaliyyətinin tənzimlənməsi ilə bağlı müxtəlif müddəalar mövcuddur.

Avropanın EC 2014/26 EU Direktivində göstərilir ki, "üzv dövlətlər bu məqsədlə yaradılan səlahiyyətli orqanlarının öz ərazilərində yaradılan kollektiv idarəetmə təşkilatları tərəfindən bu Direktivin tələblərinin icrası üçün qəbul edilmiş milli qanunvericiliyə riayət edilməsi nəzarəti həyata keçirilməsini təmin edəcəklər və bu məqsədlə hüquqlar verəcəklər".

Avrasiya İqtisadi İttifaqında kollektiv idarəetmə ilə bağlı qəbul edilmiş sənəddə açıqlıq, şəffaflıq, dövlət nəzarəti və s. məsələlərə aid xüsusi maddələr mövcuddur.

Bəs praktikada vəziyyət nə yerdədir?

Azərbaycanın KİT-nın saytlarında apardığımız monitorinq göstərir ki, audiovizual əsərləri idarə edən təşkilatın saytında yeniləşən məlumat, hesabatlar yer tapıb, bir sözlə, şəffaflıq tələbləri nəzərə alınır.

Musiqili əsərləri idarə edən KİT-nın xəbərləri yenilənmir, son dəfə 2017-ci ildəki xəbər mövcuddur, yığıncaqlar haqqında məlumat yoxdur, hesabatlar dərc edilmir və s. Bu sıraya Agentlik tərəfindən dönə-dönə edilən tə-

ləblərə baxmayaraq, illik hesabatların kecikdirilməsi, üstəlik, təqdim olunan məlumatlardakı səhvlər haqqında söhbət açmıram. Nöqsanların tez bir vaxtda aradan qaldırılmaması şəraitində qanunla nəzərdə tutulmuş addımlar atılacaq.

Sözümün sonunu dövlət başçısı cənab İlham Əliyevin 16 oktyabr 2019-cu il tarixli iqtisadi müşavirədə söylədiyi fikirləri ilə bitirmək istəyirəm: “Elə etməliyik ki, Azərbaycanda hər bir sahə şəffaf olsun və ən yüksək standartlara cavab versin. Əlbəttə bu məqsədə nail olmaq üçün korrupsiya, rüşvətxorluğa qarşı amansız mübarizə aparılmalıdır... Biz Azərbaycanı müasir, sürətlə inkişaf edən, şəffaflığı öz siyasətində bayraq edən ölkə kimi görmək istəyirik və buna nail olacağıq. Heç kim bu işdə bizə mane ola bilməz”.

Təşəkkür edirəm.

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyində hazırlanmışdır.